# 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜDÜR


# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 12 (7107) 15 iyun 2021-ci il Qiyməti 40 qəpik


## Daha bir yarış Azərbaycanın şanlı idman tarixinə yazılır



***12 iyun Azərbaycan idmanı tarixinin daha bir əlamətdar günü kimi yaddaşlara həkk olacaq. Həmin gün ilk dəfə futbol üzrə Avropa çempionatının final mərhələsinin oyunu Azərbaycanda keçirilib.***

Ümumiyyətlə, Bakı Avropanın 11 şəhəri kimi bu dəfə fərqli formatda keçirilən qitə çempionatının final mərhələsinin təşkilatçısıdır. Paytaxtın Olimpiya stadionunda "A" qrupunun üç və 1/4 final mərhələsinin bir oyunu keçiriləcək.

Yarış formatının dəyişdirilməsi həm də qitə çempionatının 60 illik yubileyini fərqli edən cəhətlərdən biridir və bir növ Avropanın birliyinin rəmzi kimi təqdim edilir.

səh. 5



## Bakı beşinci dəfə Formula 1 Qran-Prisinə ev sahibliyi etdi




***Birillik fasilədən sonra, Bakı şəhər halqası beşinci dəfə Formula 1 Azərbaycan Qran-Prisinə ev sahibliyi edib. Yarış təqvimində sayca altıncı olan Azərbaycan Qran-Prisi iyunun 4-6-da baş tutub.***

Ölkəmizdə Formula 1 yarışları 2016-cı ildən təşkil olunur. Birinci yarışda - Formula 1 Avropa Qran-Prisində "Mercedes" komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan Formula 1 Azərbaycan Qran-Prisi "Red Bull Racing Honda" komandasının avstraliyalı pilotu Daniel Rikkiardonun qələbəsi ilə başa çatıb. Ondan bir il sonra isə "Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton Bakı şəhər halqasını fəth edib. 2019-cu ildə Formula 1 idmanı tarixində sayca 1001-ci Qran-Pri olan Bakı yarışında "Mercedes" komandasının pilotu Valtteri Bottas qalib adını qazanıb. Ötən il koronavirus pandemiyası ilə əlaqədar Formula 1 üzrə dünya çempionatının bir neçə mərhələsi, o cümlədən Azərbaycan Qran-Prisi ləğv edilib. Yarışın təxirə salınmasında əsas məqsəd, Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəyə gələn Formula 1 azarkeşləri, komanda heyətləri və çempionatın digər iştirakçılarının sağlamlığını və rifahını qorumaq olub.

səh. 3

## Boksçularımız Avropa Olimpiya təsnifat turnirində 3 medal qazanıblar



***Azərbaycan boksçuları Avropa Olimpiya təsnifat turnirini üç medalla başa vurublar. Boksçumuz Alfonso Dominqes (81 kq) turnirin qalibi olub.***

Millimizin üzvü döyüşə çıxmadan çempion tituluna yiyələnib. O, britaniyalı rəqibi Benjamin Uitakerin final qarşılaşmasından imtina etməsi sayəsində çempion elan edilib. Yığmamızın digər üzvləri Lorenzo Sotomayor (69 kq) və Məhəmməd Abdullayev (+91 kq) isə bürünc medallara sahib olublar.

Qeyd edək ki, Azərbaycan millisinin heyətində Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev (63 kq), Lorenzo Sotomayor (69 kq), Alfonso Dominqes (81 kq) və Məhəmməd Abdullayev (+91 kq) Olimpiadada iştirak hüququ qazanıblar.

Turnirdə qazanılan lisenziyaların sayına görə, komandamız ümumi hesabda üçüncü yeri tutub. Yarışda "Tokio-2020"yə beş vəsiqə qazanan yığmamız yalnız Böyük Britaniya və Rusiya Olimpiya Komitəsindən geri qalıb. Bu ölkələrin hər biri 7 lisenziya qazanıb.

Ötən il Londonda başlayan və koronavirus pandemiyası səbəbindən dayandırılan, bu il Parisdə davam etdirilən yarışda ümumilikdə 8 çəki dərəcəsində (kişilər) 50 vəsiqə sahibini tapıb. Ümumilikdə isə turnirdə 18 ölkənin boksçuları "Tokio-2020"yə vəsiqə əldə ediblər.

Dünya Olimpiya təsnifat turniri isə ləğv olunduğundan 32 lisenziya reytinqə əsasən veriləcək.

## Tokio Olimpiadasında 3 karateçimiz iştirak edəcək



***Azərbaycan karateçiləri Tokio Yay Olimpiya Oyunlarına növbəti vəsiqələr qazanmaq üçün Fransanın paytaxtı Parisdə Olimpiya lisenziyalı turnirdə mübarizə aparıblar.***

"Pyer de Kubertyen" arenasında keçirilən yarışda altı idmançımızdan üçü - Neda Rezai (kata), Firdovsi Fərzəliyev (67 kiloqram) və İlahə Qasımova (55 kiloqram) yarışların birinci günü turnirə qatılıb.

İlkin mərhələdə Li Jinvaya (Koreya) 2:0, Luka Spitzə (İsveçrə) 2:0, Ramil Makaalaya (Filippin) 1:0, Şaban Abdullaya (Küveyt) 2:1 və Vinisius Fiqueyraya (Braziliya) 1:0 hesabı ilə qalib gələn F.Fərzəliyev, yarımfinalda Martial Tadissiyə (Macarıstan) 2:5 hesabı ilə məğlub olub.

səh. 4

# İdman ictimaiyyəti Azad Rəhimovun məzarını ziyarət edib



***İyunun 8-də sabiq gənclər və idman naziri Azad Rəhimovun vəfatının 40 günü idi. Gənclər və idman nazirinin müavinləri İntiqam Babayev, İsmayıl İsmayılov, Fərhad Hacıyev, ADBTİA-nın rektoru Fuad Hacıyev, eləcə də Gənclər və İdman Nazirliyinin kollektivi, gənclər təşkilatlarının və idman ictimaiyyətinin nümayəndələri mərhumun məzarını ziyarət edib, üzərinə əklil və gül dəstələri qoyublar.***

Həmçinin, Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komisiyasının rəhbər heyəti və İcraiyyə Komitəsinin üzvləri, eləcə də Latviyanın Azərbaycan Respublikasındakı səfiri Dainis Qarançs II Fəxri Xiyabanda sabiq gənclər və idman naziri, mərhum Azad Rəhimovun məzarını ziyarət edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Ziyarətçilər qeyd ediblər ki, gənclərin səmimi dostu və qayğıkeş insan olan Azad Rəhimov hər zaman xoş xatirələrlə xatırlanacaq.




Qeyd edək ki, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) prezidenti Jeno Kamuti, Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) prezidenti Kristian Hinterberger, baş katib İoanis Psilopoulos, vitse-prezident, Türkiyə Ədalətli Oyunlar Komissiyasının prezidenti, BƏOK-un üzvü Ərdoğan Arıpınar, Latviya Ədalətli Oyunlar Komissiyasının rəhbəri Baiba Veisa, AzƏOK-a göndərdikləri məktubda Azad Rəhimovun vəfatından kədərləndiklərini bildirib və dərin hüznlə başsağlığı veriblər.

# Fərid Qayıbov FIG prezidentliyinə namizəd oldu



Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti vəzifəsinə namizədlərin adları açıqlanıb. Onlardan biri Avropa Gimnastikasının (EG) prezidenti Fərid Qayıbovdur.

Digər namizəd isə FIG-in hazırkı rəhbəri olan yaponiyalı Morinari Vatanabedir.

Qeyd edək ki, yeni prezident bu il noyabrın 6-da qurumun Türkiyənin Antalya şəhərindəki 83-cü Konqresində seçiləcək.

# Azərbaycanı Tokio Olimpiadasında təmsil edəcək idmançıların vaksinasiyasına başlanıb

***Azərbaycanı "Tokio-2020" Yay Olimpiya Oyunlarında təmsil edəcək idmançıların və heyət üzvlərinin COVID-19 infeksiyasına qarşı peyvəndləmə prosesinə başlanıb.***

İlk peyvənd Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə vurulub.

Vaksinasiya prosesinə koronavirus xəstəliyinə yoluxmayan bütün idmançılar, Olimpiya heyətinin üzvləri cəlb olunublar.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə bildirib ki, vaksin vurulmasına əks göstərişi olmayan, Azərbaycanın Tokio Olimpiya Oyunları komandasının bütün üzvləri peyvəndləməyə cəlb olunacaqlar. Hazırda təlim-məşq toplanışında olan Olimpiya komandasının üzvləri də mərhələli şəkildə "Tokio-2020"dək peyvənd ediləcəklər. İştirakçı ölkələrdə başlayan peyvəndlənmə prosesi Tokio Yay Olimpiya Oyunlarının sağlamlıq üçün təhlükəsiz şəraitdə keçməsinə zəmin yaradacaq.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax son çıxışında bildirib ki, Atletlər kəndində məskunlaşacaq, Tokio Olimpiya və Paralimpiya oyunlarında iştirak edəcək idmançıların və komanda üzvlərinin 80 faizi Oyunlar başlayana qədər vaksinasiya olunacaq.

# "Qarabağ Azərbaycandır!": idman jurnalistləri arasında mini-futbol turniri start götürüb

***Azərbaycan İdman Jurnalistləri Federasiyası (AİJF), Gənclər və İdman Nazirliyi, Bədən Tərbiyəsi və İdman Akademiyası və AFFA-nın təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" devizi altında idman jurnalistləri arasında mini-futbol turniri start götürüb.***



Yarışda 8 komanda iki qrupda mübarizə aparır. Belə ki, A qrupunda "Cəbrayıl", "Laçın", "Füzuli" və "Qubadlı", B qrupunda isə "Kəlbəcər", "Ağdam", "Şuşa" və "Zəngilan" kollektivləri yer alıblar.

Turnirin final oyunu 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günündə baş tutacaq.

AİJF prezidenti Qabil Mehdiyev turnirdə iştirak edən 6 komandanın kollektiv müraciət, 2 komandanın isə (Laçın və Kəlbəcər) fərdi müraciətlər əsasında formalaşdırıldığını bildirib. Q.Mehdiyev jurnalistlərin rahatlığını təmin etmək məqsədilə açılış günü və ilk tur istisna olmaqla, qalan digər oyunların qeyri-iş günlərində təşkil edildiyini vurğulayıb. O, qalibin məhz Silahlı Qüvvələr Günündə müəyyənləşdirilməsinin də "Qarabağ Azərbaycandır!" turniri üçün xüsusi önəm daşıdığını bildirib.







İyunun 11-də turnirin açılış mərasimi olub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb. Azərbaycanın irimiqyaslı turnirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini deyən İ.İsmayılov paytaxt ilə yanaşı, bölgələrdə də beynəlxalq standartlara cavab verən idman infrastrukturunun yaradıldığını qeyd edib. Turnir iştirakçılarına uğurlar arzulayan nazir müavini növbəti yarışların işğaldan azad olunmuş ərazilərdə keçiriləcəyinə əminliyini ifadə edib.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev yarış iştirakçılarını salamlayıb. Ölkəmizdə idman jurnalistikasının inkişaf etdiyini deyən rektor Akademiyada "İdman jurnalistikası" magistr ixtisasının tədris olunduğunu diqqətə çatdırıb. Qırx dörd günlük Vətən müharibəsinin Azərbaycanın tarixində şanlı səhifə açdığını vurğulayan F.Hacıyev, həmçinin Akademiyanın stadionunun əsaslı təmirinin nəzərdə tutulduğunu deyərək, bu məqsədlə sponsorlardan, eləcə də AFFA-dan dəstək gözlədiklərini bildirib.

Veteran futbolçu İsgəndər Cavadov yarışın əhəmiyyətini yüksək qiymətləndirərək, ölkəmizdə futbolun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışıb.

Sonra oyunlara start verilib. Oyunlar Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda keçirilir.

Yarışın birinci turu iyunun 11-də, ikinci turu 13-də keçirilib.

Turnirin üçüncü turu iyunun 15-də təşkil ediləcək. Yarımfinallar iyunun 19-da, final oyunları isə iyunun 26-da olacaq.

***Fotolar DİLAVƏRindir***




**A qrupu**

**1-ci tur**

"Cəbrayıl" - "Qubadlı" - 1:7
"Laçın" - "Füzuli" - 0:7

**2-ci tur**

"Qubadlı" - "Laçın" - 7:4
"Füzuli" - "Cəbrayıl" - 11:0

**Xallar:** "Füzuli" - 6, "Qubadlı" - 6, "Laçın" - 0, "Cəbrayıl" - 0.

"Füzuli" və "Qubadlı" komandaları yarımfinala yüksəldi.

**B qrupu**

**1-ci tur**

"Zəngilan" - "Kəlbəcər" - 11:2
"Ağdam" - "Şuşa" - 3:0

**2-ci tur**

"Şuşa" - "Kəlbəcər" - 6:1
"Zəngilan" - "Ağdam" - 4:3

**Xallar:** "Zəngilan" - 6, "Ağdam" - 3, "Şuşa" - 3, "Kəlbəcər" - 0.



# Bakı beşinci dəfə Formula 1 Qran-Prisinə ev sahibliyi etdi



(Əvvəli 1-ci səhifədə)

***Bakıda Formula 1-in ilk sərbəst yürüşünü Ferstappen qazanıb***

İyunun 4-də Formula 1 Azərbaycan Qran-Prisinin birinci sərbəst yürüşünə start verilib. Yürüşlərə hər biri iki pilotdan ibarət 10 komanda qatılıb. ”Mercedes” komandasının heyətində Luis Hamilton və Valtteri Bottas, ”Ferrari” komandasında Karlos Sayns, Çarls Lekler, ”Williams”ın heyətində Corc Russell və Nikolas Latifi yarışıblar. ”Red Bull Racing” komandasında Serxio Peres,



Maks Ferstappen, ”Alpha Tauri”də Pyer Qasli və Yuki Tsunoda, ”Alpine”da isə Fernando Alonso ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, ”Alfa Romeo”nun heyətində Antonio Covinatsi və Kimi Raykonnen, ”McLaren”də Daniel Rikkardo və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Mik Şumaxer və



Nikita Mazepin ”Haas”, Sebastian Fettel və Lans Stroll ”Aston Martin” komandasının idman şərəfini qoruyublar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Birinci sərbəst yürüşü ”Red Bull Racing”in pilotu Maks Ferstappen lider kimi tamamlayıb. ”Ferrari”-nin üzvləri Şarl Lekler ikinci, Karlos Sayns isə üçüncü olublar. İkinci sərbəst yürüşdə isə ”Red Bull Racing-”in pilotları - Serxio Peres və Maks Ferstappen ilk iki pillədə yer alıblar. İlk üçlüyü ”Ferrari”nin üzvü Karlos Sayns qapayıb.

***İkinci gün maraqlı idman mübarizəsi ilə yadda qalıb***

İyulun 5-də Formula 1 Azərbaycan Qran-Prisinin ikinci gününə Formula 2 yarışları ilə start verilib. Formula 2 üzrə birinci sprint yürüşündə hər biri iki pilotla təmsil olunan 11 komanda mübarizə aparıb. Pilotlar Bakı şəhər halqasında 21 dövrə vurublar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda ”Prema Racing” komandasının rusiyalı pilotu Robert Şvartsman birinci olub. ”Carlin”in üzvü Dan Tiktum yarışı ikinci, ”UNİ-Virtuosi” komandasının pilotu Guanyu Zhou isə üçüncü pillədə başa vurublar.

Daha sonra Formula 1 Azərbaycan Qran-Prisinin üçüncü sərbəst yürüşü keçirilib. Üçüncü yürüşdə ”Alpha Tauri” komandasının pilotu Pyer Qasli fərqlənməyi bacarıb. Serxio Peres (”Red Bull Racing”) ikinci, Luis Hamilton (”Mercedes”) isə üçüncü olublar.

Gərgin idman mübarizəsinin yaşandığı Formula 1 Azərbaycan Qran-Prisinin sıralama turunda bir neçə qəza baş verib. Belə ki, ”Aston Martin” komandasının pilotu Lans Stroll 15-ci döngədən çıxarkən bolidi səddə çırpılıb. Təkəri zədələnən kanadalı pilotun bolidi yararsız hala düşüb. Növbəti qəza da 15-ci döngədə baş verib. Bu dəfə ”Alfa Romeo”nun üzvü Antonio Covinatsi sürəti tənzimləyə bilməyərək qoruyucu sədlə toqquşub.

Sıralama turunda ”Ferrari” və ”Mercedes” komandalarının pilotları Şarl Lekler və Luis Hamilton ilk iki pillədə qərarlaşıblar. Ş.Lekler 1 dəqiqə 41,218, L.Hamilton isə 1 dəqiqə 41,450 saniyəlik nəticə göstəriblər. ”Red Bull Racing”in pilotu Maks Ferstappen (1 dəqiqə 41,563 saniyə) üçüncü yerdə qərarlaşıb. Bu turun nəticələrinə əsasən, əsas yarışda pilotların düzülüşü müəyyənləşib.

Formula 1 Azərbaycan Qran-Prisinin ikinci gününə sprint yürüşü ilə yekun vurulub. İkinci sprint yürüşünün qalibi ”Hitech Grand Prix” komandasının pilotu Jüri Vips olub. ”Charouz Racing System”in üzvü David Bekmann yarışı ikinci, Cehan Daruvala (”Carlin”) isə üçüncü sırada tamamlayıblar.

***Azərbaycan Qran-Prisinin açılış mərasimi keçirilib***

İyunun 6-da Bakıda Formula 1 üzrə dünya çempionatının altıncı mərhələsi - Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Pilotların təqdimatından sonra iyunun 6-da dünyasını dəyişmiş ərəb əsilli fransalı iş adamı, Formula 1 üzrə dünya çempionatında komandası olan idman avtomobilləri istehsalçısı ”McLaren” şirkətinin sərmayədarı Mansour Ojjehin xatirəsi yad edilib.

Sonra mötəbər yarışın xüsusi konsepsiya əsasında hazırlanan açılış mərasimi olub. Açılış mərasiminin əsas konsepsiyası Azərbaycan Qran-Prisinin builki çempionatın beşinci yarışı olmasına, eləcə də multikulturalizm və tolerantlıq ideyalarına əsaslanıb. Formula 1 Azərbaycan Qran-Prisi beşinci dəfə günəşli Bakı küçələrinə qayıdıb.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan nümayəndə heyəti Avropa Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçkilərdə iştirak edib




*Avropa Olimpiya Komitəsinin (AOK) iyunun 10-da Afinada keçirilən 50-ci Baş Assambleyasında Yunanıstanın Milli Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos AOK-un prezidenti seçilib.*

O, AOK tarixində 9-cu prezident kimi səlahiyyətlərinin icrasına başlayıb.

Azərbaycanı toplantıda Milli Olimpiya Komitəsinin nümayəndələri - MOK baş katibinin müavini Azər Əliyev, marketinq şöbəsinin müdiri Mehman Kərimov, beynəlxalq şöbənin rəhbəri Anar Bağırov, eləcə də Avropa Gimnastika Federasiyasının prezidenti Fərid Qayıbov və Azərbaycanın Yunanıstandakı səfiri Anar Hüseynov təmsil ediblər.

AOK-un Baş Assambleyasının toplantısında qurumun digər orqanlarına da seçkilər keçirilib. AOK-un baş katibi vəzifəsinə Rafael Paqnozzi (İtaliya), vitse-prezidenti vəzifəsinə isə Daina Qudzineviciute (Litva) seçilib. 2021-2025-ci illər üçün AOK İcraiyyə Komitəsinə isə Jan Mişel Brun (Fransa), Annamari Felps (Böyük Britaniya), Berit Kyoll (Norveç), Hasan Arat (Türkiyə), Corce Visatski (Serbiya), Viktoriya Kabezas (İspaniya), Xose Manuel Arauxo (Portuqaliya), Mixay Kovaliu (Rumınıya), Zlatko Matesa (Xorvatiya), Kristina Vasilianov (Moldova), Liney Halldorsdottir (İslandiya) və Uşi Şmitz (Almaniya) seçiliblər.

# ”Tokio-2020” Yay Paralimpiya Oyunlarında ölkəmizi təmsil edəcək daha 5 idmançının adı açıqlanıb

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) atletika idman növü üzrə milli komandasının üzvləri Elvin Astanov, Elmir Cəbrayılov, Səid Nəcəfzadə, Həmid Heydərli və Yelena Çebanu ”Tokio-2020” XVI Yay Paralimpiya Oyunlarında ölkəmizin şərəfini qoruyacaqlar.

Sonuncu açıq Avropa çempionatında uğurla iştirak etmiş idmançılarımız E.Astanov, E.Cəbrayılov, S.Nəcəfzadə və H.Həmidli, eləcə də reytinq xalları qazandıran yarışlarda yüksək nəticələr əldə etmiş Y.Çebanu ”Tokio-2020”də iştirak hüquqnu qazanıblar.

Beləliklə, ”Tokio-2020 Yay Paralimpiya Oyunlarında ölkəmizi təmsil edəcək atletlərimizin sayı 8-ə çatıb. Oluxan Musayev, Kamil Əliyev və Samir Nəbiyev daha əvvəl dünya çempionatında göstərdikləri nəticələrə görə Oyunlara iştirak hüququ qazanmışdırlar.

”Tokio-2020”y lisenziya qazanmış Oluxan Musayev, Samir Nəbiyev və Elvin Astanov kürə itələmə, Elmir Cəbrayılov və Yelena Çebanu qaçış, Kamil Əliyev və Səid Nəcəfzadə uzunluğa tullanma, Həmid Heydərli isə nizə atma növündə iştirak edəcəklər.

Qeyd edək ki, bu günədək AMPK-nın idmançıları ”Tokio-2020”yə artıq 18 lisenziya əldə ediblər. Onlardan 8-i atletika, 4-ü parataekvondo, 3-ü üzgüçülük, 2 - si güllə atıcılığı və 1-i pauerliftinq növündəndir.

# Günay Məmmədzadə Qran-Pri turnirində üçüncü yeri tutub



***Azərbaycan şahmatçısı Günay Məmmədzadə Cəbəllütariqdə qadın şahmatçılar arasında keçirilən Qran-Pridə uğurla çıxış edib.***

Təmsilçimiz 6,5 xalla Qran-Prini 3-cü yerdə başa vurub. Turnirin qalibi 8,5 xalla qazaxıstanlı şahmatçı Jansaya Abdumalik olub. İkinci yeri 7 xalla Ukrayna təmsilçisi Mariya Muzıçuk tutub.

Qeyd edək ki, yarışda dünyanın 12 güclü zəka sahibi mübarizə aparıb.

# Bakı beşinci dəfə Formula 1 Qran-Prisinə ev sahibliyi etdi



*(Əvvəli 3-cü səhifədə)*

Asfalt cəngavərləri Bakı şəhər halqasını "alovlandırmazdan" əvvəl, bütün komandalar və tədbirin qonaqları himn üçün ayağa qalxıblar.

Builki Formula 1 Azərbaycan Qran-Prisinin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himnini Vətən müharibəsi qazisi Ataş Qarayev və Səbinə Babayeva tərəfindən səsləndirib. Himn səsləndirilən zaman trek üzərində dayanan müxtəlif millətlərin nümayəndələri əllərində Azərbaycan Respublikasının Dövlət Bayrağını tutublar. Onlar Bakıda keçirilən beşinci Formula 1 yarışını simvolizə edən və barış işarəsini əks etdirən "V" formasında dayanıblar.

Qeyd edək ki, Dövlət Himninin bu mərasim üçün xüsusi versiyası tanınmış Azərbaycan bəstəkarı və musiqi prodüseri Azad Vəliyev tərəfindən hazırlanıb. Azərbaycan Respublikasının Dövlət Himninin bu tərtibatı Konstitusiya ilə dəqiq müəyyənləşdirilmiş formada təqdim olunub.

***Serxio Peres ilk dəfə Bakıda qalib olub***

Açılış mərasimindən sonra Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışına start verilib. Qran-Pridə hər birində iki pilot olan on komanda mübarizə aparıb. Pilotlar uzunluğu 6 kilometr, yürüş marşrutunun ümumi məsafəsi isə 306 kilometr olan Bakı şəhər halqasında iki saat ərzində 51 dövrə vurublar.

Maraqlı hadisələrin baş verdiyi və gərgin idman mübarizəsinin yaşandığı Azərbaycan Qran-Prisi "Red Bull Racing Honda" komandasının meksikalı pilotu Serxio Peresin qələbəsi ilə başa çatıb. O, Bakı şəhər halqasında 51 dövrəni hamıdan tez (1:44.703) başa vuraraq podiumda birinci pillənin sahibi olub. İkinci yeri "Aston Martin" komandasının almaniyalı sürücüsü Sebastian Fettel (1:45.138) qərarlaşıb. "AlphaTauri" komandasının fransalı sürücüsü Pyer Qasli (1:45.588) isə yarışı üçüncü sırada tamamlayıb.



Qaliblərin mükafatlandırılması mərasimində podiumda yer alan pilotlara və Qran-Prinin qalibi olan "Red Bull Racing Honda" komandasının nümayəndəsinə kuboklar təqdim edilib.

Qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın dövlət himnləri səsləndirilib.

Beləliklə, bu qələbə sayəsində Serxio Peres Formula 1 üzrə dünya çempionatında pilotların mübarizəsində iki pillə irəliləyək 69 xalla üçüncü sırada qərarlaşıb.

Ümumilikdə altı Qran-Pridən sonra çempionata 105 xalla "Red Bull Racing Honda" komandasının niderlandlı pilotu Maks Ferstappen liderlik edir. Bəhreyn (26-28 mart), Portuqaliya (30 mart-2 may) və İspaniya (7-9 may) Qran-prilərinin qalibi olan M.Ferstappen aprelin 16-18-də keçirilmiş İtaliya və mayın 20-23-də təşkil olunan Monako Qran-prilərində ikinci yeri tutub.

"Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton 101 xalla ikincidir. Onun həmyerlisi, "McLaren" komandasının pilotu Lando Norris (66 xal) dördüncü, "Ferrari"nin Monakodan olan pilotu Şarl Lekler (52 xal) isə beşinci sırada yer alıblar. Azərbaycan Qran-Prisində podiumda üçüncü pillədə yer alan Pyer Qasli 31 xalla səkkizinci sırada qərarlaşıb. Bakı yarışında üçüncü olan Sebastian Fettel isə 28 xalla 9-cu sıradadır.



"Red Bull Racing Honda" komandası Bakı Qran-Prisində qələbə sayəsində ikinci sıradakı "Mercedes" ilə xal fərqini 26-ya çatdırıb. Hazırda bu komandanın 174 xalı var. "Ferrari" isə 94 xalla üçüncü sırada qərarlaşıb. "McLaren" komandası 92 xalla dördüncü, "AlphaTauri Honda" isə 39 xalla beşincidir.

Bu Qran-Pridə "Mercedes" komandasının pilotları xal qazana bilməyiblər. Belə ki, Valtteri Bottas yarışı 12-ci, Luis Hamilton isə 16-cı pillədə başa vurublar. Beləliklə, 2018-ci ildəki Avstriya Qran-Prisindən sonra ilk dəfə bu komanda yarışda xal qazanmayıb.

***Fotolar DİLAVƏRindir***

# Təhsil Nazirliyi və MOK arasında əməkdaşlıq məsələləri müzakirə olunub



*Təhsil naziri Emin Əmrullayev Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə ilə görüşüb.*

Görüş zamanı tərəflər arasında son illər daha da aktivləşən əməkdaşlığın davam etdirilməsi xüsusilə vurğulanıb.

Emin Əmrullayev uğurlu əməkdaşlığın nəticəsi olaraq birgə layihələrin hazırlanması və icrasında Təhsil Nazirliyinin maraqlı olduğunu bildirib və əlavə edib ki, görülən işlərə dəstək olmaq nazirliyin əsas fəaliyyət istiqamətlərindən biridir.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə öz növbəsində bildirib ki, Təhsil Nazirliyi ilə 2010-cu ildən başlayan aktiv əməkdaşlığın 2019-cu ildə nəinki ölkə, hətta Avropa səviyyəli Olimpiya Mədəniyyəti və Təhsili Proqramı (OCEP) ilə başa çatması ən mühüm uğur oldu.

Görüşdə tərəflər əməkdaşlıqdan irəli gələn bir sıra vacib məsələləri müzakirə ediblər.

# AİJF "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi ilə anlaşma memorandumu imzalayıb

***İyunun 2-də Azərbaycan İdman Jurnalistləri Federasiyası ilə "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***



Federasiyanın ofisində keçirilən imzalanma mərasimində çıxış edən federasiya prezidenti Qabil Mehdiyev hər iki təşkilatın yeni yaranmasına baxmayaraq, son bir ildə səmərəli fəaliyyətləri ilə etimadı doğrultmağa çalışdıqlarını vurğulayıb. Rəhbərlik etdiyi qurumun fəaliyyəti və gələcək planları barədə məlumat verən Q.Mehdiyev "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi ilə əməkdaşlığın hər iki təşkilat üçün faydalı olacağına əminliyini ifadə edib.

"Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin sədri Miraqil Seyidzadə bu təşkilatın ölkəmizdə idman könüllülərinə duyulan ehtiyacdan yarandığını qeyd edib. O, son vaxtlar bir sıra idman qurumları ilə əməkdaşlığı genişləndirdiklərini bildirərək, təşkilatın sıralarında mindən artıq könüllünün birləşdiyini bildirib.

Sonda Qabil Mehdiyev və Miraqil Seyidzadə memorandumu imzalayıblar.

# Tokio Olimpiadasında 3 karateçimiz iştirak edəcək

*(Əvvəli 1-ci səhifədə)*

Bürünc medal görüşündə Stefan Cokiçi (Serbiya) 3:2 hesabı ilə məğlub edən karateçimiz Tokio Olimpiadasına lisenziyalar uğrunda dördlər finalında iştirak etmək imkanı da qazanıb.

Mükafatçılar dairəvi sistemlə bir-birləri ilə yarışıblar. Nəticədə üçüncü yeri tutan F.Fərzəliyev Tokio Yay Olimpiya Oyunlarına vəsiqə alıb. Qeyd edək ki, yarışda hər çəki dərəcəsində ilk üç yeri qazanan idmançılar Olimpiya lisenziyaları əldə ediblər.

Turnirin ilk günü çıxış edən digər idmançılarımızdan Neda Rezai (kata) və İlahə Qasımova (55 kiloqram) ilk görüşlərdə məğlub olublar.

Turnirin ikinci günündə karateçilərimizdən Roman Heydərov (kata) və Fəridə Abiyeva (kumite, 61 kq) gücləri sınayıblar. İdmançılarımızdan heç biri mükafatçılar sırasına düşə bilməyib.

Yarışın son günü mübarizə aparan Asiman Qurbanlı (+75 kq) ilk görüşdə mərakeşli Nəbil Əç-Çəabiyə 4:3, sonrakı qarşılaşmalarda belaruslu Aleksey Vodçits 5:1 və Rodriqo Roxasa (Çili) 1:0 hesabla qalib gələn Asiman Qurbanlı Tareq Hamedinin (2:9, Səudiyyə Ərəbistanı) öhdəsindən gələ bilməyib. Bürünc medal uğrunda döyüşən karateçimiz Daniel Gaysinskiyə (Kanada) uduzaraq mübarizəni dayandırıb.

Beləliklə, Tokio Olimpiadasına Azərbaycan komandasının əldə etdiyi vəsiqələrin sayı 3-ə çatıb.

Qeyd edək ki, "Tokio-2020"nin iştirakçılarından ilk 40 idmançının adları Dünya Karate Federasiyasının (WKF) rəsmi yarışlarında xüsusi Olimpiya reytinqinin ilk 4 pilləsi ilə təyin edilib. Daha 24 idmançı Fransanın paytaxtında xüsusi Olimpiya lisenziya turnirində vəsiqə qazanıb. 12 əlavə Olimpiya vəsiqəsi isə müvafiq olaraq qitə nümayəndəliklərinə veriləcək. Qalan 4 karateçiyə Olimpiya vəsiqələri Üçtərəfli komissiyanın dəvəti ilə veriləcək.

"Tokio-2020"də 80 karateçi yarışacaq, onlardan 60 nəfəri kumitedə, 20 idmançı isə kata çıxışlarında mübarizə aparacaq. Olimpiadanın karate yarışları avqustun 5-7-də Nippon Budokan mərkəzində keçiriləcək.

# Daha bir yarış Azərbaycanın şanlı idman tarixinə yazılır



*(Əvvəli 1-ci səhifədə)*

Belə bir hadisənin Bakının da təşkilatçılardan biri kimi daxil olması ölkəmizin daha bir əhəmiyyətli uğuru sayıla bilər.

Beləliklə, Azərbaycan paytaxtı Avropa liqasının final matçından sonra diqqət mərkəzində olan daha bir mötəbər futbol yarışının həlledici mərhələsinin təşkilatçısı olur. Təkcə son illərdə Birinci Avropa, İslam Həmrəylik Oyunlarını,



şahmat olimpiadasını da əlavə etsək, Azərbaycanın dünyada əhəmiyyəti ilə seçilən idman yarışlarında təşkilatçılığı və bu sahədə uğurları digər sahələrdəki nailiyyətlərimizin bir parçası və Azərbaycanın idman ölkəsi kimi imicinin möhkəmlənməsinə xidmət edir.

Beləliklə, böyük futbol marafonunun ev sahibi kimi idman tariximizdə daha bir möhtəşəm səhifə açılır.

Bakının qitə çempionatına ilk dəfə ev sahibliyi etməsini tarixin səhifəsinə çevirən ilk matçı müasir Azərbaycanın idman uğurlarının əsas memarı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tribunadan izləyiblər.

"A" qrupunun Bakı Olimpiya Stadionunda keçirilən Uels - İsveçrə matçı gərgin mübarizə şəraitində keçib. İlk hissədə qapılara qol vurulmasa da, ikinci hissənin əvvəlində obyektiv üstün olan isveçrəlilər hesabı açıblar. Lakin bu Uels komandasının ruhunu qırmayıb və onlar daha əzmkar mübarizədə bərabərliyə nail oldular. Qarşılaşma son illər dünya futbolunda get-gedə geniş tətbiq edilən VAR (hakimin videokömәkçisi) sisteminin qitə çempionatında ilk dəfə tətbiq edilməsi ilə tarixə keçib. 85-ci dəqiqədə Qavranoviç isveçrəliləri yenidən hesabda irəli çıxarsa da, məhz VAR sistemi qolun oyundankənar vəziyyətdən vurulmasını təsdiqləyib. Beləliklə, qitə çempionatlarının final mərhələsi tarixində ilk dəfə matçın nəticəsinə təsir edə biləcək, lakin obyektiv olaraq hiss olunmayacaq tarixi hakim səhvinin qarşısı alınıb.

Ümumən Bakıda keçirilən bu tarixi oyunla bağlı qeydlərimizə qayıtsaq, idmanın müxtəlif növləri üzrə mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan miqyasından asılı olmayaraq böyük hazırlıq tələb edən idman tədbirlərini rahatlıqla keçirir. Bu isə idman qurumlarının bu hüququ tərəddüd etmədən Azərbaycana verməsinin təsadüfi olmadığını əyani nümayiş etdirir.

Qitə çempionatının açılış matçı isə Bakıdakı qarşılaşmadan bir gün əvvəl Roma şəhərində keçirilib. Həmin oyunda ev sahibi İtaliya millisi Türkiyənin futbol millisindən üstün olub. Burada doğma divarlar amili ilə yanaşı, müzakirələrə açıq olan seçilmiş taktiki planlamanın yetərli olmamasını, habelə funksional natamamlığı, eləcə də "skuadra"nın daha təcrübəli heyətə malik olmasını səbəblərdən biri kimi göstərmək olar. Lakin futbol bu kimi komponentlərin cəmindən formalaşan bir oyun olduğu üçün obyektiv qiymətləndirmə İtaliya seçmə kollektivinin xeyrinə idi.

Ümumən keçirilmiş oyunlar bir sıra cəhətləri ilə diqqət çəkir. Kopenhagendəki Finlandiya - Danimarka matçının 41-ci dəqiqəsində danimarkalı Kristian Erikssen huşunu itirərək yerə yıxılıb. İngiltərəli referi Entoni Teylor dərhal həkim briqadasını dəvət edib. Həmkarları onu dövrəyə alaraq bu dəhşətli mənzərənin nümayiş olunmamasına çalışıblar. Yaxınlıqdakı tribunadakı finlandiyalı azarkeşlərin əsl insanpərvərlik nümayiş etdirməsi isə xüsusi qeyd oluna bilər. Onlar milli bayraqlarını futbolçuya tibbi yardımın göstərilməsi və həm də bayraqla xüsusi pərdənin qurulması üçün veriblər. Futbolçuya süni nəfəs verilib və o, xəstəxanaya çatdırılıb. Matç bir neçə saatdan sonra bərpa edilib. Əlbəttə, nəticə danimarkalılar üçün münasib olmayıb və bəlkə də futbolçuların psixoloji durumu da buna təsir edib. Çünki finlər hesabı açdıqdan sonra da təyin edilən penaltini faktiki ev sahibləri dəqiq yerinə yetirə bilməyiblər.

Qitə çempionatlarının yubiley turnirinin ən əhəmiyyətli hadisələrindən birinin müəllifliyi avstriyalılara nəsib oldu. Makedoniyalılarla qarşılaşmanın 78-ci dəqiqəsində Avstriyanı hesabda irəli çıxaran qolun müəllifi Mixael Qreqoritç həm də "Avro"lar tarixinin 700-cü dəfə topu qapıdan keçirən futbolçusudur.

Həmin görüşdə Şimali Makedoniya millisinin böyük yarışlarda ilk qolunun müəllifi olan Qoran Pandev isə qitə çempionatları tarixinin ən yaşlı ikinci qol müəllifi oldu. Ən "yaşlı qol"çu isə "Avro-2008"də Polşanın qapısından cavab topunu penaltidən keçirmiş avstriyalı İvitsa Vastiçdir (38 yaş 257 gün).

Ümumən, final mərhələsi hələlik əlahiddə möcüzə olmadan başlanıb.

**BATI YAR**

**"Avro-2020" rəqəmlərin dili ilə:**

**"A" qrupu**

***11 iyun. Roma. Türkiyə - İtaliya 0:3*** (Merih Dəmiral, 53-öz qap, Çiro İmmobile, 66, Lorenso İnsinye, 79).

***12 iyun. Bakı. Uels - İsveçrə 1:1*** (Kiffer Mur, 74//Brel Embolo, 49).

"B" qrupu

***12 iyun. Kopenhagen. Danimarka - Finlandiya 0:1*** (Yoel Pohyanpalo, 60).

***12 iyun. Sankt-Peterburq. Belçika - Rusiya 3:0*** (Romelu Lukaku, 10, 88, Tomas Mönye, 34).

**"C" qrupu**

***13 iyun. Buxarest. Avstriya - Şimali Makedoniya 3:1*** (Ştefan Layner, 18, Mixael Qreqoritç, 78, Marko Arnautoviç, 89//Qoran Pandev, 28).

***13 iyun. Amsterdam. Niderland - Ukrayna 3:2*** (Corcinyo Veynaldum, 52, Vut Veqhorst, 59, Denzel Dumfris, 85//Andrey Yarmolenko, 75, Roman Yaremçuk, 79)

**"D" qrupu**

***13 iyun. London. İngiltərə - Xorvatiya 1:0*** (Rahim Sterlinq, 57)

***14 iyun. Qlazqo. Şotlandiya - Çex Resp. 0:2*** (Patrik Şik, 42, 52)

**"E" qrupu**

***14 iyun. Polşa - Slovakiya (Sankt-Peterburq) və İspaniya - İsveç (Sevilya) matçları gec başa çatıb.***

# Şəhriyar "Grand Chess Tour"un ilk mərhələsində qalib oldu



***"Grand Chess Tour" şahmat seriyasının birinci mərhələsi Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarovun qələbəsi ilə yekunlaşıb.***

Şəhriyar ilk 4 turda ardıcıl heç-heçələrdən, o cümlədən həmyerlisi Teymur Rəcəbovla bərabərlikdən sonra bir-birinin ardınca rumıniyalı Konstantin Lupulesku, ermənistanlı Levon Aronyan və turnirin ABŞ-lı reytinq favoriti Fabiano Karuana üzərində qələbələr qazanaraq ilk pillədə möhkəmlənib. Son iki turda heç-heçə edən Məmmədyarov xallarını 6-ya çatdıraraq qalib olub.

Son turda Levon Aronyanla heç-heçə edən Teymur Rəcəbov yarışı 4,5 xalla başa vurub.

Seriya ümumilikdə beş mərhələdən və böyük finaldan ibarət olacaq.

# Dünya çempionatından 1 medal

***İyunun 6-dan 13-dək Budapeştdə cüdo üzrə dünya çempionatı keçirilib.***

Tokio Olimpiadasına lisenziya xarakterli nüfuzlu yarışda Azərbaycan 12 cüdoçu ilə təmsil olunub. Belə ki, kişilərin mübarizəsində Davud Məmmədsoy, Kəramət Hüseynov (60 kiloqram), Orxan Səfərov, Nicat Şıxəlizadə (66 kiloqram), Nurlan Osmanov, Hidayət Heydərov (73 kiloqram), Murad Fətiyev, Zelim Tkçayev (81 kiloqram) və Elmar Qasımov (100 kiloqram) güclərini sınayıblar.

Qadınların yarışında isə ölkəmizi Aişə Qurbanlı, Leyla Əliyeva (48 kiloqram) və Gültac Məmmədəliyeva (52 kiloqram) təmsil ediblər.

Turnirdə milli komandamız 1 medal qazanıb. Belə ki, Kəramət Hüseynov 1/32 finalda Mohammad Raşnonezad (Beynəlxalq Cüdo Federasiyası), 1/16 finalda Nikolae Foça (Moldava), 1/8 finalda Yaponiya təmsilçisi Ryuju Naqayamaya ilə qarşılaşmalarda qələbə qazansa da, 1/4 finalda fransalı Valide Xyara (FRA) məğlub olub. K.Hüseynov təsəlliverici görüşdə monqolustanlı Unubold Lxaqbayamtsanı mübarizədən kənarlaşdırdıqdan sonra üçüncü yer uğrunda qazaxıstanlı Maqzhan Şamsadinə qalib gəlib və bürünc medal qazanıb.

# Ruslan Lunyov Avropa çempionatında bürünc medal qazanıb

***Xorvatiyanın Osiek şəhərində güllə atıcılığı üzrə keçirilən Avropa çempionatında Azərbaycanın güllə atıcısı uğurla çıxış edib.***



Yığmamızın üzvü Ruslan Lunyov 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında 582 xal qazanaraq bürünc medal əldə edib.

Yığmamızın digər üzvü Nigar Bağırova pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçma yarışlarında 578 xalla 3-cü nəticə göstərərək 8 nəfərin yer aldığı finala vəsiqə qazansa da, finalda zəif çıxış etdiyinə görə mükafatçılar sırasına düşməyib.

Xatırladaq ki, Azərbaycanın güllə atıcısı Ruslan Lunyov İtaliyanın Bolonya şəhərində keçirilən qitə çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışının qalibi olmaqla "Tokio-2020" Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.

# Güləşçilərimizdən 1 qızıl, 4 bürünc medal



*Varşavada güləş üzrə "Poland Open" turniri keçirilib. Reytinq xarakterli yarışın ilk günlərində sərbəst güləşçilər mübarizə aparıblar.*

Turnirdə baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında Hacı Əliyev (70 kq), Hacımurad Hacıyev (74 kq) və Şərif Şərifov (97 kq) xalça üzərinə çıxıblar.

Beynəlxalq dərəcəli hakim Sədi Quliyev turnirdə ədaləti qoruyub.

Yarışın ilk günündə mübarizə aparan güləşçilərimizdən Hacı Əliyev A qrupunda ilk turda Özbəkistan pəhləvanı üzərində inamlı qələbə qazanıb. Həmyerlimiz daha sonra qazax həmkarını vaxtından əvvəl üstələyib. Üçüncü turda gürcü rəqibindən də güclü olan Əliyev qrup qalibi kimi yarımfinala yüksəlib. Ancaq finalın bir addımlığında ABŞ təmsilçisinə xalların keyfiyyətinə görə uduzub. Bürünc medal uğrunda yenidən Gürcüstan güləşçisi ilə qarşılaşan Hacı rəqibinə minimal fərqlə qalib gələrək üçüncü yeri tutub.

Şərif Şərifov isə pley-off sistemi ilə yarışıb və debütdə İtaliya təmsilçisinə xalların keyfiyyəti prinsipinə əsasən məğlub olub.

Yarışın ikinci günündə turnirə 1/4 finaldan start verən Hacımurad Hacıyev iranlı Yunis İmamişoqayi üzərində əzmkar qələbə qazanıb. Ancaq yarımfinalda İranın digər təmsilçisi Mustafa Hüseynxaniyə məğlub olub. Hacıyev Polşa güləşçisi Kamil Ribiçkini rahat üstələyərək bürünc medala sahib olub.

Yarışın üçüncü günü qadın güləşçilər mübarizəyə qoşulub.

Mariya Stadnik (50 kq) startda Rumıniya güləşçisi Emiliya Alina Vuku tam üstünlüklə məğlub edib. 1/4 finalda ABŞ təmsilçisi Erin Qolston qadın güləşinin canlı əfsanəsi qarşısında cəmi 1 dəqiqə 18 saniyə duruş gətirə bilib. Stadnik ənənəsinə sadiq qalaraq rusiyalı rəqibi Mariya Tiumerekovanı da ilk hissədə xalçadan məyus yola salaraq adını finala yazdırıb. Həlledici görüşdə ukraynalı həmkarı Oksana Livaça qalib gələn Mariya Polşada növbəti qızıl medalı hesabına yazıb.

Yarışın beşinci günündə yunan-Roma güləşçiləri mübarizə aparıblar. 82 kq-da turnirdə iştirak edən Rafiq Hüseynov debütdə danimarkalı rəqibi Raybek Bisultanova qalib gəlib. Həmyerlimiz yarımfinalda ukraynalı güləşçi Yaroslav Filçakova minimal fərqlə məğlub olub. Hüseynov üçüncü yer uğrunda görüşdə Norveç idmançısı Maqnus Qroenvikə gücünü göstərib. İlk hissədə rəqibini "tuşe" ilə üstələyən Rafiq bürünc medal qazanıb.

Yarışın son günündə 97 kq-da çıxış edən İslam Abbasov təsnifat mərhələsində Türkiyə güləşçisi İbrahim Tığcıya qalib gəlib. Həmyerlimiz 1/4 finalda İran idmançısı Mehdi Məhəmməd Balihamzadəyə məğlub olub. Rəqib finala yüksəldiyi üçün Abbasov təsəlliverici görüşə çıxıb və danimarkalı rəqibi Matias Bak üzərində inamlı qələbə qazanıb. Son qarşılaşmada yerli pəhləvan Gerard Kurniçak üstələyən İslam bürünc medalı boynundan asıb.

Beləliklə, komandamız yarışı 1 qızıl, 4 bürünc medalla başa vurub.

# Tomas Bax: Tokioda Olimpiya Oyunları mütləq keçiriləcək



***Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax bir daha bəyan edib ki, Tokio Yay Olimpiya və Paralimpiya oyunları planda nəzərdə tutulduğu kimi cari ildə keçiriləcək.***

Yaponiya KİV-lərində dərc olunan xəbərlərdə bildirilir ki, BOK prezidenti bu barədə qurumun İcraiyyə Komitəsinin üç gün davam edən virtual iclasından sonra təşkil edilən mətbuat konfransında deyib.

T.Bax bildirib ki, hazırda BOK digər maraqlı tərəflərlə sıx əməkdaşlıq şəraitində Tokio Oyunlarına hazırlıq işlərini yekunlaşdırmaq üzrədir.

BOK prezidenti qeyd edib ki, o, Tokioya gələn ayın ortalarında - iyulun



23-də keçiriləcək açılış mərasimi ərəfəsində gedəcək. Bu səfər Yaponiyada müəyyən edilmiş karantin qaydalarına uyğun olaraq həyata keçiriləcək.

Bir müddət öncə Tomas Bax, Olimpiada başlayana qədər yarış iştirakçılarının azı 75 faizinin peyvəndlənəcəyini bildirib. Eyni zamanda, Pfizer və BioNTech kompaniyaları Tokio Olimpiya Oyunlarının peyvənd olunmaq istəyən iştirakçılarının immunlaşdırılması üçün komitəyə təmənnasız olaraq COVID-19 əleyhinə vaksin verəcəyini elan edib.

Olimpiya Oyunlarının təşkilat komitəsinin prezidenti Seyko Hasimoto da pandemiya səbəbindən Tokio Olimpiadasının ləğv olunmasına və ya təxirə salınmasına qarşı çıxıb.

"Olimpiya Oyunlarını yenidən təxirə sala bilmərik", - deyə Seyko Hasimoto koronavirusun yayılması ilə bağlı Oyunların keçirilməsinə qarşı etirazlar fonunda "Nikkan" idman qəzetinə müsahibəsində bildirib.

Tokio Yay Olimpiya və Paralimpiya Oyunlarının təşkilatçıları hazırkı pandemiya vəziyyətinə görə durumdan nəinki narahatdırlar, əksinə Tokioya gələcək nümayəndə heyətinin tərkibinin genişlənməsinə qərar veriblər. Yeni qərara görə, istənilən nümayəndə heyəti rəhbərliyi müşayiət edəcək əcnəbi qonaqların sayını 12-dən 40-dək artıra bilər. Bu barədə iyunun 4-də NHK telekanalı məlumat yayıb. Bildirilir ki, ilkin mərhələdə ölkə yüksək səviyyədə təmsil olunacağı təqdirdə hər bir nümayəndə heyətinin tərkibinin 12 nəfərdən ibarət olması nəzərdə tutulurdu. Bu tələbdən sonra mühafizə xidmətinin azaldılacağı təqdirdə təhlükəsizlik tədbirlərinin lazımi səviyyədə təşkili ilə bağlı problemlər yaranacağı barədə narahatlıqlar ifadə edilib. Aparılan danışıqlardan sonra Olimpiya Oyunlarında təşkilatçıları müşayiət edən şəxslərin sayının 18-ə, ehtiyac yaranarsa isə 40-a çatdırılması qərara alınıb.

Telekanalın məlumatına görə, xarici dövlətlərin nümayəndələrinə əvvəlcədən vaksinasiyadan keçmə və Yaponiyada 5 gündən artıq qalmamaq tövsiyə ediləcək.

Nümayəndə heyətinə böyük məsafələri qət etmək üçün ictimai nəqliyyatdan istifadəyə də icazə veriləcək. Onlardan kənar şəxslərlə ünsiyyət qurmamaları tələb olunacaq. Bu tələblərlə razılaşan və koronavirusla bağlı analizlərinin nəticələri mənfi olan nümayəndə heyətlərinin üzvləri iki həftəlik karantin rejimindən azad olunacaqlar.

Tokioda Olimpiadanın keçirilməsinə qarşı olanlar sırasında isə deputatlar var. "Tokyo Shimbun" qəzetinin məlumatına əsasən, Tokio Paytaxt Assambleyasının (prefekturanın parlament orqanı) əksər deputatları Oyunların ləğvinə meyillidir.

Yaponiyanın baş tibbi məsləhətçisi Siqeru Omi parlament komitəsində çıxışı zamanı mövcud epidemioloji vəziyyəti nəzərə alaraq Olimpiadanın keçirilməsinin "anormal" olduğunu deyib.

Yaponiyada 10 minədək könüllü də Tokio Olimpiadasına qatılmaqdan imtina edib. Bu barədə Tokio Olimpiya və Paralimpiya Oyunlarının təşkilat komitəsi məlumat yayıb. Bildirilir ki, həmin şəxslər ümumi sayı 80 minə çatan könüllülərin bir hissəsidir.

Qeyd edilir ki, könüllülərin dəstəni tərk etməsinə fevralda, həmin vaxt təşkilat komitəsinin sədri vəzifəsində olan Yoşiro Morinin qadınlar haqqında səsləndirdiyi alçaldıcı ifadədən sonra başlanılıb.

Hətta, Y. Mori istefa verdikdən sonra belə müxtəlif faktorlar əsas gətirən könüllülər dəstəni tərk etməkdə davam ediblər. Həmin faktorlar sırasında koronavirusa yoluxma təhlükəsi və fərdi fəaliyyətlə bağlı məsələlər göstərilir.

Təşkilat Komitəsinin baş direktoru Toşiro Muto bildirib ki, onun fikrincə bəzi şəxslər könüllülər dəstəsini şəxsi işləri ilə bağlı tərk ediblər.

Bununla yanaşı, T.Muto qeyd edib ki, çoxlu sayda insanın dəstəni tərk etməsi, bəzi könüllülər həm Olimpiya, həm də Paralimpiya Oyunlarına qatılacağına görə ümumi işdə problem yaratmayacaq.

2020-ci il iyulun 24-dən avqustun 9-na qədər keçirilməli olan, lakin koronavirus pandemiyası səbəbindən təxirə salınan Olimpiya Oyunlarının bu il iyulun 23-dən avqustun 8-nə qədər keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Yaponiya dünyanın bir çox ölkəsinin əziyyət çəkdiyi geniş miqyaslı koronavirus epidemiyasından yayınmağa müvəffəq olub. Lakin son dalğanın gedişində koronavirus infeksiyasının səbəb olduğu ağırlaşmalar daha çox müşahidə edilir. Pandemiyanın əvvəlindən bəri Yaponiyada koronavirusa 752 mindən çox yoluxma və 13 min 245 ölüm faktı qeydə alınıb.

# Azərbaycan triatlonçusu Avropa Kubokunun qalibi olub

***Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Ukraynanın Dnipro şəhərində təşkil olunan sprint üzrə Avropa kuboku yarışlarında qızıl medal qazanıb.***



Təmsilçimiz 16 ölkədən 39 triatlonçunun mübarizə apardığı yarışı 51 dəqiqə 20 saniyəlik nəticə ilə başa vurub. R.Pevtsov 750 metrlik su məsafəsini 9 dəqiqə 23 saniyəyə qət edib. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 25 dəqiqə 47 saniyəyə başa vurub. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını təmsilçimiz 14 dəqiqə 58 saniyə nəticə ilə tamamlayıb.

Kseniya Levkovskaya isə bu il beynəlxalq arenada ikinci mükafatını əldə edib. İdmançımız Şarm əl-Şeyxdə keçirilən Açıq Afrika Kuboku yarışlarında bürünc medal qazanıb.

Qeyd edək ki, triatlonçularımız "Tokio 2020" Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün iki il ərzində təsnifat yarışlarında iştirak edirlər və Olimpiadaya lisenziya xalları toplayırlar.

# Naftalan şəhərində Reqbi Klubu fəaliyyətə başlayıb

***İyunun 9-da Naftalan şəhərində Reqbi Klubunun açılış mərasimi keçirilib.***



Açılış mərasimində çıxış edən Azərbaycan Reqbi Federasiyasının birinci vitse-prezidenti Elvar Osmanov ölkəmizdə reqbinin inkişafı istiqamətində görülən işlərdən danışıb. O deyib ki, əsas hədəf idmanın digər növlərində olduğu kimi, reqbi üzrə də idmançılarımızın böyük nailiyyətlər əldə etmələrinə şərait yaratmaqdır.

Naftalan, Gəncə Şəhər, Goranboy Rayon Gənclər və İdman idarələrinin rəisləri çıxışlarında uşaq və gənclərin reqbiyə böyük maraq göstərdiklərini qeyd ediblər. Çıxışlarda Naftalan Reqbi Klubunda ölkəmizin idman şərəfini layiqincə qoruyacaq atletlərin yetişəcəyinə əminlik ifadə olunub.

Sonra təlim-məşqlərə start verilib.

# Transfer pəncərəsində

## Yeni mövsüm avqustun 14-də başlanacaq



***Peşəkar Futbol Liqası Azərbaycan Premyer liqasında yeni - 2021-22-ci illər mövsümünü avqust ayının 14-də başlamaq qərarına gəlib. Qurum həm də yeni dövrün transfer pəncərəsinin tarixlərini də müəyyənləşdirib. Yay oyunçu bazarı iyunun 10-da başlayaraq sentyabrın 1-də, qış dövrü isə gələn il yanvarın 10-da açılaraq fevralın 9-da yekunlaşacaq.***

Artıq komandalardan da ilk soraqlar daxil olmağa başlayıb. Əlbəttə, əsas diqqət Avropa klub kuboku iştirakçılarına yönəlib. Ötən dövrün ən böyük xəbəri "Qarabağ"lı Mahir Emrelinin, nəhayət ki, qərar verərək, ölkə xaricində də təcrübə toplamağa başlamasıdır. 24 yaşlı futbolçu Polşa çempionu paytaxt "Legiya"sı ilə 3+1 illik mü-



qavilə imzalayıb. Mahir yeni komandasında "11" nömrəli formanı geyinəcək.

"Qarabağ"dan bəhs etmişkən komandanın artıq bir transferi reallaşdırdığını da qeyd edək. Klub Braziliyanın "Koritiba" klubunun yetirməsi olan 25 yaşlı yarımmüdafiəçi Kadi Yuri Borceş Malinovski ilə 2+1 illik müqavilə imzalayıb. Emrelidən savayı komandanı Rafael Məhərrəmli ("Keşlə"), Hacıağa Hacılı (icarə əsasında "Zirə") tərk ediblər. Ağdam təmsilçisi ötən günlərdə Maksim Medvedev, Bədavi Hüseynov, Elvin Cəfərquliyev, Qara Qarayev, Abbas Hüseynov, Rahil Məmmədov ilə müqavilə müddətlərini uzadıb.

Yeni mövsümün ən erkən oyanan komandası uzun illərdən sonra çempionluq taxtına qayıtmış "Neftçi"dir. "Ağ-qaralar" yeni mövsümün təlim-məşq toplanışına başlayıb. Hazırlıq prosesində müxtəlif fiziki təmrinlər və toplu çalışmalar yerinə yetirilir. Hazırlığın ikinci mərhələsi iyunun 16-dan 30-dək Sloveniyada olacaq və 4 yoxlama görüş (iyunun 18-i, 22-si, 25-i və 29-u) keçiriləcək. Klubdan yaponiyalı Keysuke Honda, Rener Alveş və icarə müddəti başa çatmış Əhməd Əhmədov (SSKA Sofiya, Bolqarıstan), habelə "Keşlə"-yə icarə əsasında yola düşmüş Rəhman Hacıyev, Turan Vəlizadə gediblər. "Neftçi"nin ilk transferi isə "Keşlə"dən alınacağı barədə söz-söhbət gəzən 29 yaşlı paraqvaylı yarımmüdafiəçi Sezar Meza Kolli olub və onunla 2 illik müqavilə imzalanıb. Qorunub saxlanılan futbolçular da var: Mamadu Mboc, Ömər Buludov, Fəhmin Muradbəyli, Rəhman Hacıyev, Turan Vəlizadə, Mirabdulla Abbasov. Klubda yeni məşqçi də var. Mübariz Orucov əsas komandada köməkçi məşqçi vəzifəsini yerinə yetirəcək.

Avrokubokun daha bir iştirakçısı "Sumqayıt" baş məşqçisi Ayxan Abbasov və kapitanı Vurğun Hüseynov, eləcə də Murad Xaçayev və Elvin Məmmədovla yeni müqavilələr imzalayıb. Komandanı "Zirə"yə üz tutmuş Mehdi Cənnətovla Mehdi Şərifi tərk ediblər.

Avrokubokda yer alacaq "Keşlə"ni Meza Kollidən savayı, Vüsal İsgəndərli də tərk edib. Lakin heyətin yeni üzvləri "Neftçi"dən icarə qaydası ilə alınmış Rəhman Hacıyev və Turan Vəlizadə, "Sabah"-dan Elçin Mustafayev, "Qəbələ"-dən Merab Giqauridir. Qəsəbə kollektivi Şəhriyar Əliyev, Azər Salahlı, Rəhman Hacıyev, Turan Vəlizadə, Tərlan Quliyev, Tural Axundov, Kamal Bayramov, İlkin Qırtımov, Rafael Məhərrəmli, Rail Məlikov, Ruslan Əmircanov, Miyusko Bojoviç, Stanislav Namaşko ilə müqavilə müddətini uzadıb.

"Zirə" adı yuxarıda çəkilən Cənnətovla yanaşı, "Sabah"dan Təmkin Xəlilzadəni də alıb. Komandanı Elvin Camalov ("Sabah"), Kərim Diniyev, Lazar Corceviç, Ruslan Qurbanov, Tural Bayramlı, Klesio Bauk, Rodriqo Bonqonqi, Mateus Albino tərk ediblər. Ağabala Ramazanov və David Volkov heyətdə qalacaqlar.

Baş məşqçi Ramin Quliyevi postunda saxlamaq qərarına gəlmiş "Sabah" Zirədən Elvini almaqla ilk transferi həyata keçirib, lakin adları yuxarıda çəkilən Təmkin və Elçinlə yanaşı, Məhəmməd Mirzəbəyov, Amadu Diallo, Alvaro Vilyete, Kevin Kubemba və Ruslan Abışov artıq kollektivin üzvləri deyillər. Əvəzində Saşa Stamenkoviç, Zurab Oçiqava, Xulio Sezar Rodrigesin heyətdə qalacaqları məlumdur.




"Qəbələ"nin ilk transferi autsayderlik qonşusu "Səbail"dən gəlmiş Ürfan Abbasovdur. "Keşlə"nin formasını geyinəcək Merab Giqauridən savayı, Nikolas Raysel, Ceyms Adeniyi və Cavid Hüseynov da artıq əyalət komandasında çıxış etməyəcək.

"Səbail" də baş məşqçisini qoruyub. Lakin sükançı Aftandil Hacıyevin ixtiyarında Florian Kadriu, Milovan Petrovik, Luka İmnadze, Əli Sisey və "Qəbələ"yə getmiş Ürfan Abbasov olmayacaq.

# Millidə komanda və oyun axtarışları davam edir



Azərbaycan milli futbol komandası yoxlama matçlar seriyasını başa vurub. Qələbəsizlik seriyasına Minskdə son qoyan komanda daha sonra Moldovada məğlub olub. Əlbəttə, baş məşqçinin heyətlə bağlı hələ araşdırmalar apardığı aydındır. Bu səbəbdən qalaqurmaları da anlaşılandır. Ümid edək ki, o, komanda və oyun axtarışlarının məhz lazım olan istiqamətdə yekunlaşdırıb. Çünki artıq sükançının rəsmi oyunlar dövrü üçün konkret qərarlar verərək, optimal oyun standartlarının bəlli etməsi vacibdir. Çünki keçirilən yoxlama matçlarda hələlik bu istiqamətdə aydınlıq gətirilməsindən söhbət belə gedə bilməz.



**Yoxlama oyunlar**

***Belarus - Azərbaycan 1:2 (0:0)***

***2 iyun. Minsk. Milli Olimpiya Stadionu***

**Qol:** M.Skaviş, 56//B.Hüseynov, 73, R.Şeydayev, 90+1.

**Sarı vərəqə:** Valadzko, 26, Ebonq, 61//Krivotsyuk, 40, Medvedev, 53, Q.Qarayev, 75, V.Mustafayev, 82, A.İsayev, 90.

**Belarus:** Pavel Pavlyuçenko, Kiril Pyaçenin (Roman Yuzepçuk, 46), Maksim Şvetsov, Maksim Valadko, Artyom Bıkov (Vladislav Klimoviç, 70), Ruslan Xadarkeviç, Maks Ebonq (Andrei Solovey, 83), Maksim Skaviş (kap.), Nikolay Zolotov (Qleb Şevçenko, 76), Yevgeni Yablonski, Dmitri Antilevski (Dmitri Padstrelav, 77).

**Baş məşqçi:** Georgi Kondryatev

**Azərbaycan:** Emil Balayev, Anton Krivotsyuk (Rüstəm Əhmədzadə, 68), Qara Qarayev (Vüqar Mustafayev, 76), Bədəvi Hüseynov, Azər Salahlı, Höccət Haqverdi, Toral Bayramov (Anatoli Nuriyev, 76), Maksim Medvedev (kap.), Namiq Ələsgərov (Elvin Cəfərquliyev, 68), Emin Mahmudov (Aleksey İsayev, 75), Əli Qurbani (Ramil Şeydayev, 68).

**Baş məşqçi:** Canni De Byazi.

***Moldova - Azərbaycan 1:0 (1:0)***

***6 iyun. Kişinyov. "Zimbru" stadionu.***

**Qol:** V.Damaşkan, 8.

**Sarı vərəqə:** Spataru, 80

**Moldova:** Xristian Avram, Vadim Bolohan (Maksim Potirniçe, 64), İqor Armaş (kap.), Vyaçeslav Posmaç, Vitali Damaşkan (İon Nikolyesku, 58), İqor Kostrov (George Anton, 46), İoan Yardan, Aleksandr Belousov, Kristian Dros, Sergi Platitsa (Daniel Dumbravanu, 90+1), Vadim Ratsa (Dan Spataru, 59).

**Baş məşqçi:** Roberto Bordin.

**Azərbaycan:** Mehdi Cənnətov, Qara Qarayev, Bədəvi Hüseynov, Anton Krivotsyuk (Rüstəm Əhmədzadə, 46), Azər Salahlı (Elvin Cəfərquliyev, 76), Höccət Haqverdi (Sərtan Daşqın, 46), Maksim Medvedev (kap., Şəhriyar Əliyev, 52), Namiq Ələsgərov (Toral Bayramov, 46), Emin Mahmudov (Anatoli Nuriyev, 65), Aleksey İsayev, Ramil Şeydayev.

**Baş məşqçi:** Canni De Byazi.

# Bakıda karate üzrə beynəlxalq seminar keçirilib

Dünya Karate Federasiyası Hakimlər komitəsinin sədri və Tokio Olimpiadasında karate yarışlarının baş hakimi Havier Eskalante Azərbaycan Milli Karate Federasiyasının (AMKF) dəvəti ilə hakimlərimizə növbəti beynəlxalq seminar keçib.

Hakimlərlə birgə milli komandanın məşqçiləri və idmançılarının da qatıldığı seminarda yarış qaydalarında yeniliklərlə bağlı məlumat verilib. Görüşlərdə yarana biləcək mürəkkəb anlarda düzgün qərar vermək, eləcə də bir sıra vacib məqamları xatırladan H.Eskalante seminar iştirakçılarının suallarını cavablandırıb. Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Tokio Yay Olimpiya Oyunlarının karate yarışlarını idarə etməyə təyin edilən 15 beynəlxalq hakimdən biri Cahangir Babayev seminarda H.Eskalanteyə assistentlik edib.

Seminarda çıxışı zamanı Bakıya hər səfərindən məmnun qaldığını söyləyən Havier Eskalante AMKF-in uğurlu fəaliyyəti sayəsində beynəlxalq yarışlarda nəticələrimizdən danışıb, hakim, məşqçi və idmançıların üzərinə düşən vəzifələrin öhdəsindən yüksək səviyyədə gəlindiyini söyləyib. O, Azərbaycan karatesinin uğurlarının təmsil etdiyi təşkilat tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

AMKF-in prezidenti və Dünya Karate Federasiyasının Texniki Komitəsinin üzvü Yaşar Bəşirov Azərbaycan karatesinə verilən bu yüksək dəyərə görə rəsmi qonağa minnətdarlığını ifadə edərək, bu uğurların dövlətin idmana dəstəyi sayəsində əldə olunduğunu bildirib. O, bundan sonra da Azərbaycan idmançılarının dünya karatesinin inkişafına töhfə verəcəklərini deyib.

# Allah rəhmət eləsin!

Gənclər və İdman Nazirliyinin kollektivi Zərdab rayon Gənclər və İdman İdarəsinin rəisi İlkin Əliyevə atası

**Böyükağa Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İDMAN

**№ 12 (7107)** *15 iyun 2021*


## Respublika Olimpiya İdman Liseyi 2021-2022-ci tədris ili üçün şagird qəbulu elan edir

Respublika Olimpiya İdman Liseyi xüsusi qabiliyyəti olan şagirdləri aşağıda qeyd olunan idman bölmələri üzrə V sinfə qəbul edir:

**1. Sərbəst güləş**
**2. Yunan-Roma güləşi**
**3. Cüdo**
**4. Futbol**
**5. Boks**
**6. İdman gimnastikası**

Liseyə qəbul edilən şagirdlər dövlət hesabına yeməklə, respublikanın rayonlarından qəbul edilənlər isə yataqxana ilə də təmin olunurlar. Liseyin Azərbaycan və rus bölmələri var.

Liseyə daxil olmaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Direktorun adına ərizə;*
*2. Valideynin şəxsiyyət vəsiqəsinin əsli və surəti;*
*3. Şagirdin şəxsiyyət vəsiqəsinin (doğum haqqında şəhadətnamənin) əsli və surəti;*
*4. Sağlamlıq haqqında arayış - forma 086;*
*5. Oxuduğu məktəbdən arayış;*
*6. Yaşayış yerindən arayış;*
*7. 3x4 sm ölçüdə 2 ədəd fotoşəkil;*
*8. Rayon gənclər və idman idarəsinin və ya digər idman təşkilatının göndəriş məktubu.*

Ərizələr iyun ayının 15-dək qəbul edilir.

Dərslər sentyabrın 15-dən başlanır.

**LİSEYİN ÜNVANI:** Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Fətəliyev küçəsi, 68. (E.Xəlilov,37)

**TELEFON:** 429-75-49

**QEYD:** Liseyə qəbul üçün aşağıdakı linkə daxil olmaqla, liseyə müraciət anketini doldurmaq lazımdır: www.olimpiyaidmanliseyi.tk

## Gənclərin Karate 1 Liqa yarışından 7 medal

***Azərbaycan idmançıları Kiprin Limassol şəhərində keçirilmiş gənclərin Karate 1 Liqa yarışında uğurla çıxış ediblər.***



Turnirdə Azərbaycanın uşaq, yeniyetmə və gənclərdən ibarət seçmə komandaları iştirak ediblər. Yeniyetmə və gənclərdən ibarət komandanın baş məşqçisi Anar Allahverdiyevin rəhbərlik etdiyi heyət turnirdə 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Belə ki, 14-15 yaşlı yeniyetmələrdən Salman Salmanov və Ramilə Heydərova (hər ikisi kata) qızıl, Mehralı Məmmədov (+70 kq) gümüş, Amin Yadigarlı (52 kq) və Aysu Əliyeva (47 kq) isə bürünc medallara sahib olublar.

Fərid Savadov (55 kq) və Nicat Kərimli (61 kq) isə 16-17 yaşlı gənclərin yarışında uğurla çıxış ediblər. F.Savadov qızıl, N.Kərimli bürünc medal qazanıblar.

Aşağı yaşlı karateçilərimizi, həmçinin böyük məşqçilər Seymur Xudaverdiyev və Nağı Mehdiyev, kata üzrə milli komandanın böyük məşqçisi Anar Əhmədov müşayiət edib. Beynəlxalq referi Mais Mədətov isə görüşlərin idarə olunmasında iştirak edib.

Yarışda ümumilikdə 37 ölkədən 760 idmançı mübarizə aparıb.

## İdman qidalarının idxalına və satışına nəzarət gücləndiriləcək

***Səhiyyə Nazirliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) arasında ölkədə idman qidaları, bioloji fəallığa malik qida əlavələrinin dövriyyəsi və istifadəsi ilə bağlı nəzarət mexanizmlərinin gücləndirilməsinə həsr edilmiş görüş keçirilib.***




Azərbaycan Milli Antidopinq Agentliyinin və Səhiyyə Nazirliyinin birgə təşəbbüsü ilə keçirilən görüşdə nazirliyin Analitik Ekspertiza Mərkəzinin, AQTA-nın və AMADA-nın nümayəndələri iştirak ediblər.

Görüşdə çıxış edən səhiyyə nazirinin müavini Elsevər Ağayev bioloji fəallığa malik qida əlavələrinin nəzarətsiz istifadəsinin insan orqanizminə vura biləcəyi zərər və təhlükələr haqqında məlumat verib, məsələnin aktuallığına diqqət çəkib.

AMADA-nın direktoru Şəfəq Hüseynli bioloji fəallığa malik qida əlavələrinin tərkibinə xüsusi nəzarət sisteminin yaradılmasının vacibliyini bildirib, bunun təmiz idman dəyərlərinin və idmançıların sağlamlığının qorunması baxımından da əhəmiyyətli olduğunu qeyd edib.

AQTA-nın aparat rəhbəri Elxan Mikayılov isə bu cür maddələrin daxili istehsalına nəzarətin gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin bioloji fəallığa malik qida əlavələrinin qeydiyyatı, ölkəyə idxalı, keyfiyyətə nəzarət mexanizmləri və pərakəndə satışı ilə bağlı mövcud vəziyyət, habelə effektiv nəzarət mexanizminin formalaşması üçün qanunvericiliyin təkmilləşdirilməsi məsələləri müzakirə olunub.

Bioloji fəallığa malik qida əlavələrinin idxalı və satışına nəzarəti gücləndirmək üçün monitorinq və yoxlama tədbirlərinin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

## Qısa-qısa



Belarusun paytaxtı Minskdə yeniyetmə boksçular arasında Vladimir Botvinnikin xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə Kənan Babayev (48 kq), Məhəmmədəli Qasımzadə (54 kq) Emili Rzayeva (63 kq) qalib olublar. Mahir Süleymanovla (52 kq), Fərhad Şeydayev (63 kq) gümüş, Tofiq Quliyev (46 kq), Əvəz Əliyev (50 kq), Fuad Babayev (60 kq), Sənan Hətəmov (63 kq) və Liliya Bulatova (57 kq) isə bürünc medal qazanıblar. Yığmamız yarışın yekunlarına görə, komanda hesabında üçüncü yeri tutub.

Futbol üzrə "Gənclər kuboku"nun final oyununda "Qəbələ" əlavə vaxtda vurduğu qolla"Sabah"a qalib gələrək baş mükafatı qazanıb.

Çimərlik futbolu üzrə Azərbaycan milli komandası Portuqaliyanın Nazare şəhərində "EBSL-2021" Avropa çempionatının seçmə mərhələsində iyunun 17-də Portuqaliya, ertəsi gün Ukrayna, iyunun 19-da isə Almaniya komandası ilə üz-üzə gələcək. Millimiz daha sonra iyunun 21-27-də dünya çempionatının seçmə mərhələsində İsveçrə və Fransa milli komandaları ilə qarşılaşacaq.

Ustad ağır atletlərin "Zoom" proqramı vasitəsilə keçirilən dünya çempionatında yaşı 70-74 arası olan atletlər arasında Səddar Quliyev ("Zirvə", 81 kq) və Vladimir Jilyayev ("Zirvə", 96 kq), 35-39 yaşlıların mübarizəsində klubunun təmsilçisi Virur Bayramov ("Dinamo"; 89 kq) gümüş medala layiq görülüblər. 96 kiloqram çəki dərəcəsində Elnur Hüseynov ("Zirvə") qızıl medal qazanıb.

Peşəkarlar arasında keçirilmiş döyüşdə boksçumuz Fuad Tarverdi ilk qələbəsini qazanıb. Əməkdar məşqçi Rəhim Allahverdiyevin yetirməsi Moskvada keçirilmiş döyüşdə qırğızıstanlı Saymik Mamadaliyevi üçüncü raundda texniki nokautla məğlub edib.

## Gimnastımız Misirdə gümüş medal qazanıb

***Kişi idman gimnastikası üzrə Azərbaycan yığma komandasının üzvü Misirdə gümüş medala sahib olub.***



Qahirədə təşkil edilmiş idman gimnastikası üzrə dünya kuboku yarışlarında ölkəmizi Cavidan Babayev, Murad Ağarzayev və Sərvər Əliyev təmsil ediblər.

Təsnifat mərhələsində halqalarla çıxışına görə finala adlayan C.Babayev həlledici mərhələdə fəxri kürsünün ikinci pilləsinə yüksəlməyi bacarıb.

Sərbəst hərəkətlər üzrə finala vəsiqə qazanan M.Ağarzayev isə yekunda altıncı yerlə kifayətlənib.


Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

"İdman"ın kompüter mərkəzində yığılıb-səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1064
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.